*Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, milli ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 3 fevral 2016-cı il | № 9 (2024) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar

***Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibəti ilə ölkə gənclərinin bir qrupu ilə görüşüb. 1996-cı il fevralın 2-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə keçirilmiş birinci Gənclər Forumunu çox əlamətdar hadisə kimi dəyərləndirən dövlət başçısı o vaxt Azərbaycanda gənclər siyasətinin əsas istiqamətlərinin müəyyən olunduğunu vurğuladı. Prezident İlham Əliyev həmin illərdə baş vermiş taleyüklü hadisələrə toxunaraq bildirdi:***



"Ümumiyyətlə, 1996-cı il müstəqil tariximizin xüsusi ili idi. Çünki 1996-cı ildən sonra ölkəmizdə inkişaf dövrü başlamışdır. Sabitləşmə dövrü isə xalqın tələbi ilə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra başlamışdır. Ancaq 1996-cı ilə qədər ölkəmizdə gedən proseslər imkan vermirdi ki, ölkə inamla inkişaf dövrünə qədəm qoysun. Əgər statistik göstəricilərə nəzər salsaq, görərik ki, 1996-cı ildən sonra iqtisadi artım başlamışdır, iqtisadiyyatda tənəzzül aradan götürülmüşdür, inflyasiyanın səviyyəsi aşağı düşməyə başlamışdır. Ümumiyyətlə, Azərbaycanın müstəqillik tarixinin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra çox ağır vəziyyətlə üzləşmişdi. Daha doğrusu, bu vəziyyət ondan əvvəlki dövrdə yaranmışdır. Azərbaycana qarşı erməni iddiaları, torpaq iddiaları və Sovet hökumətinin bu məsələdə ermənilərin tərəfini tutması, əlbəttə ki, ölkəmiz üçün böyük problemlər yaratmışdı.

Erməni işğalı, torpaqlarımızın itirilməsi, Dağlıq Qarabağdan azərbaycanlıların qovulması, 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi, əlbəttə ki, bizim böyük faciəmizdir. 1993-cü ilin aprel ayında Kəlbəcərin erməni işğalı altına düşməsi nəticəsində faktiki olaraq, biz Dağlıq Qarabağı Ermənistanla ayıran bölgəni də itirdik və beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Bu da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində, əlbəttə ki, çox mənfi rol oynamışdır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu, bizim dədə-baba torpağımızdır. Heç vaxt Azərbaycan xalqı və dövləti bu vəziyyətlə barışmayacaq. Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar".

Müstəqilliyimizin ilk illərində hakimiyyətə gəlmiş qüvvələrin buraxdığı kobud səhvlərə öz münasibətini bildirən dövlət başçısına görə, o vaxt problemlərimizdən biri də hakimiyyətdə olan adamların təcrübəsizliyi, bəzi hallarda xəyanəti olmuşdur. "Azərbaycan Xalq Cəbhəsi-Müsavat hakimiyyəti xalqımız üçün böyük bəla, böyük biabırçılıq idi. Hakimiyyəti zəbt edəndən sonra onlar Azərbaycanı faktiki olaraq uçurum kənarına qoymuşdular...

Bax bu ağır vəziyyətdə - 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır. Amma vəziyyət 1996-cı ilə qədər yenə də çox gərgin idi. 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı" imzalanmışdır və bu gün də bizim inkişafımızın uğurlu olmasında çox mühüm rol oynayır. Bu, çox ciddi bir siyasi və iqtisadi addım idi. Bu, bəzi xarici ölkələri çox narahat etmişdir və iki həftə keçmədən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərilmişdir. Əlbəttə, Azərbaycan xalqı imkan vermədi ki, bu, baş tutsun. Amma bu, xalqımıza, dövlətimizə qarşı çox ciddi bir hərbi əməliyyat idi. 1995-ci ildə artıq digər qruplaşma - xarici oriyentasiyadan olan qruplaşma yenə də dövlət çevrilişinə cəhd göstərmişdi. O cəhd də yatırıldı. Yenə də xalq küçələrə, meydanlara çıxıb hakimiyyəti, Heydər Əliyevi müdafiə etmişdir. 1996-cı il artıq sabitləşmə ili kimi tarixdə qalır. Təsadüfi deyil ki, 1996-cı ilin əvvəlində Gənclər Forumu keçirilmişdir.

Mən bu tarixə nəyə görə qayıdıram? Çünki birincisi, bu, həqiqətdir. Dediyim sözlər və xüsusilə verdiyim qiymətlər ən diplomatik və yumşaq qiymətlərdir. Gənclər bunu bilməlidirlər ki, biz hansı vəziyyətdən çıxıb, hansı vəziyyətə gəlib çıxmışıq. Digər tərəfdən, əgər bu tarixi yaddan çıxarsaq, onda biz öz gələcək planlarımızı düzgün qura bilməyəcəyik".

Ölkəmizin son 20 ildə keçdiyi tarixi yolu inkişaf, sabitlik dövrü adlandıran dövlət başçısının fikrincə, bu dövr ərzində Azərbaycan dünya miqyasında çox güclü dövlətə çevrilib. "Təsadüfi deyil ki, 155 ölkə bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına seçilməyimiz zamanı dəstəkləmişdir. Güclü iqtisadiyyat yaratmışıq, güclü sosial siyasət aparılır, güclü ordu qurmuşuq. Hətta beynəlxalq hesablamalarda Azərbaycan Ordusu dünya miqyasında 40 ən qüdrətli ordu sırasındadır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, bizim ordumuz güclü ordular sırasındadır. Mənim təhlilimi beynəlxalq qurumlar da təsdiqləyir".

Ölkə rəhbərinin də vurğuladığı kimi, ötən illər ərzində respublikamız böyük iqtisadi nailiyyətlər əldə edib. Azərbaycan enerji sahəsində dünya əhəmiyyətli layihələrə imza atıb, İpək Yolu ölkələrini birləşdirən tranzit dövlətə çevrilib.

"Hazırda "Cənub" qaz dəhlizini icra edirik. Bu da bizim təşəbbüsümüzdür. Özü də 1994-cü ildə "Əsrin kontraktı" imzalananda, əlbəttə ki, bizim iqtisadi və siyasi vəziyyətimiz indiki kimi deyildi. Bizə hər tərəfdən təzyiqlər göstərilirdi və o vaxt iqtisadiyyatımız, demək olar ki, dağılmış vəziyyətdə idi. Ancaq Heydər Əliyevin güclü iradəsi, cəsarəti və gələcəyə olan baxışları bunu mümkün etmişdir. Biz bu illərdə iqtisadi şaxələndirmə ilə məşğul olmuşuq. Amma bu sahə ilə yenə də məşğul olmaq lazımdır. Ancaq bir çox məsələləri həll edə bilmişik. Azərbaycan indi kosmik dövlətə çevrilibdir. Elmin, təhsilin inkişafı, infrastruktur layihələrinin icrası - bütün bunlar ölkəmizi gücləndirir".

Dünyada baş verən iqtisadi böhran, təəssüflər olsun ki, ölkəmizdən də yan keçməyib. Dövlət başçısı bunu yeni dövrün başlanğıcı kimi dəyərləndirir. "Hesab edirəm ki, bu gün ölkəmiz üçün yeni dövr başlayır. Əminəm ki, bu dövr də uğurlu olacaqdır. Bu, postneft dövrüdür. Postneft dövrü bizim hesablamalarımıza görə 2040-cı ildən sonra başlamalı idi. Ancaq neftin qiymətinin kəskin düşməsi nəticəsində artıq biz postneft dövründə yaşayırıq.

Əlbəttə ki, iqtisadi sahədə ciddi islahatların aparılmasına çox böyük ehtiyac var. Bu islahatlar başlayıb və dərinləşəcək. Biz çalışmalıyıq və əminəm, buna nail olacağıq ki, Azərbaycan iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarından fərqlənməsin, o səviyyədə olsun".

Ölkəmizin çox güclü intellektual potensiala, əlverişli coğrafi mövqeyə malik olduğunu milli sərvət hesab edən Prezident İlham Əliyev ölkəmizin uğurlu inkişafına əmin olduğunu qeyd edir. "İndiki dövrdə biz Azərbaycana qabaqcıl texnologiyaları gətirməliyik və kadr potensialı da hazırlanmalıdır ki, gələcəkdə texnoloji tərəqqidən kənarda qalmayaq. Bundan sonrakı dövrdə həm siyasi müstəvidə, həm də iqtisadi və hərbi sahələrdə texnologiyalar, bilik, savad hər şeyi həll edəcək. Bu gün artıq hərbi sahədə yeni texnologiyalar hər şeyi dəyişir. O qədər də böyük orduya malik olmayan ölkələr bəlkə də hərbi cəhətdən ən güclü ölkələrə çevrilir. Ona görə biz bu sahəni daim diqqət mərkəzində saxlamalıyıq. Ona görə Azərbaycanda elmin inkişafına, yeni texnologiyaların, İKT-nin, kosmik sənayenin inkişafına böyük diqqət verilir".

Bu gün Azərbaycanın dünya üçün nümunə olan ölkəyə çevrildiyini bildirən ölkə rəhbəri bu il Azərbaycanda BMT-nin himayəsi altında keçiriləcək Sivilizasiyalar Alyansının Qlobal Forumunu çox mötəbər, dünya miqyaslı beynəlxalq tədbir adlandırıb:

"Biz dünyəvi, tolerant ölkəyik, tolerant xalqıq. Biz istəyirik ki, bütün millətlər bir yerdə olsunlar. Biz ona görə bu forumları keçiririk. Bu il "Multikulturalizm ili" elan olunmuşdur ki, sivilizasiyaları, dinləri birləşdirək. Yenə də demək istəyirəm ki, Azərbaycan nümunədir".

Xarici siyasət məsələlərindən danışarkən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin əsas prioritet olduğunu bir daha bəyan edib:

"Əfsuslar olsun ki, bu münaqişə öz həllini tapmır. Mən həmişə demişəm ki, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi yaranmazdı.

İndi bu məsələni həll etmək üçün bilirsiniz ki, biz çox çalışırıq. Ancaq əfsuslar olsun ki, Ermənistan tərəfi vaxtı uzatmağa çalışır. Çox təəssüf edirəm ki, bu məsələ ilə bilavasitə məşğul olmalı olan Minsk Qrupunun həmsədrləri münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar.

Baxın, Avropa Şurasında son dinləmələrdə onların təxribatçı fəaliyyəti nəyə gətirib çıxardı. Sual olunur: onlar özlərini nə sayırlar? Yəni, bütün beynəlxalq təşkilatlara təzyiqmi edəcəklər? Bütün beynəlxalq təşkilatlara göstərişmi verəcəklər? İndi Avropa Şurası bu məsələni gündəliyə çıxarır. Məruzəçi təyin edilibdir. Avropa Şurası beynəlxalq təşkilatdır. Düzdür, Azərbaycan bu təşkilatla əlaqələri 15 ildir ki, qurubdur və münasibətlərdə heç də hər zaman problemsiz dövr olmamışdır. Ancaq Avropa Şurası ilk dəfə olaraq 2005-ci ildə Ermənistanın işğalını pisləyən qətnamə qəbul etmişdir. Həmin sənəddə göstərilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Əlbəttə, orada müxtəlif adamlar var. Anti-Azərbaycan mövqeyində adamlar var, islamofob adamlar kifayət qədər çoxdur. Ümumiyyətlə, Ermənistanla həmrəy olanlar, erməni lobbisi ilə bağlı olanlar var. Mən orada üzv olmuşam, bunu bilirəm. Ancaq bu təşkilat indi bu məsələni gündəliyə çıxarıb. Minsk Qrupunun həmsədrləri onlara təzyiq edirlər ki, bu məsələyə baxılmasın. Məhz bu təxribatçı fəaliyyətə görə bizə 4 səs çatmadı ki, bu qətnamə qəbul olunsun.

Biz Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalamadıq. Bunun bir neçə səbəbi var idi. Birinci səbəb, ona görə ki, bizim təkidimizə baxmayaraq, o sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe nəzərdə tutulmamışdır. Mən də dedim ki, əgər bu, olmasa, biz Assosiasiya Sazişinə qol qoymayacağıq. Hesab edirdilər ki, biz burada, necə deyərlər, şantaj edirik. Amma bu, bizim mövqeyimizdir. Belə də oldu. Başqa səbəblər də var idi. Amma əsas səbəb bu idi. Bu, ikili standartlardır. Bu, dözülməzdir.

Əgər bu gün ikili standartlar dünya miqyasında, dünya siyasətində bir meyardırsa, onda onu bəyan etsinlər. Onda riyakarlığa son qoyulsun. Deməsinlər ki, biz demokratiyanın, bərabərliyin tərəfdarıyıq, bütün xalqlar bərabərdir, insan haqlarının tərəfdarıyıq. Bəs 1 milyon Azərbaycan vətəndaşının insan haqları barədə onlar heç düşünürlərmi? Yox, bu, onları maraqlandırmır! Real vəziyyət bundan ibarətdir. Biz, əlbəttə ki, real dünyada yaşayırıq. Bunu nəzərə almalıyıq. Öz siyasətimizdə də nəzərə alırıq. Ancaq, eyni zamanda, öz sözümüzü həmişə demişik və deyəcəyik. Biz təhlükəsizliyi özümüz təmin edirik. Azərbaycanda insanlar təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Bu gün Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır".

Dövlət və dövlətçiliyimizin inkişafında gənclərin böyük rolu olduğunu söyləyən Prezident İlham Əliyev üzünü gənclərə tutub dedi:

- Gənclər isə, əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta Sovet dövründə dilimizi, adət-ənənələrimizi, bayramlarımızı qorumuşuq. Baxmayaraq ki, Novruz bayramı dini bayram deyil, indiki şəraitdə, əlbəttə, biz onu qorumalıyıq. Çünki indi başqa risklər, başqa çağırışlar var - qloballaşma, digər kənar təsirlər. Bəzi xarici dairələr gənclər arasında iş aparırlar və aydındır ki, bunun məqsədi nədir. Məqsəd özləri üçün dayaq yaratmaqdır. O dayaq ki, nə vaxtsa işə salına bilər. Amma gənclər milli ruhda böyüyəndə, əlbəttə ki, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıyıq və biz qoruyuruq. Əsas budur. Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu, davamlı olsun. Bizdən sonra hakimiyyətə gələn nəsil də bu amalla yaşasın - dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət".

**AZƏRTAC-ın materialları əsasında**

## 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Sizi 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibəti ilə təbrik edir və hər birinizə ən səmimi arzularımı bildirirəm.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumundan 20 il keçir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin forumdakı tarixi nitqi ilə dövlətimizin yeni gənclər siyasətinin əsası qoyulmuş və bu istiqamətdə fəaliyyətin məzmun, forma və metodları müəyyənləşdirilmişdir. Ötən 20 il ərzində Azərbaycan gəncliyi həqiqətən mütəşəkkil qüvvəyə çevrilmiş, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha fəallıq göstərmişdir.

1997-ci ildə ulu öndərimizin "2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncamı nəinki gənclərin, eləcə də bütün ölkə vətəndaşlarının böyük ruh yüksəkliyinə səbəb olmuşdur.

Bu gün Azərbaycanda həm mənəvi, həm də fiziki cəhətdən sağlam gənclər yetişir. Onlar elm, mədəniyyət, səhiyyə, sənaye və digər sahələrdə uğurlu nailiyyətlər əldə edir, mötəbər idman yarışlarında, Olimpiya oyunlarında ölkəmizin şərəfini qoruyaraq, Azərbaycan Bayrağını yüksəklərə qaldırırlar.

Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən Silahlı Qüvvələrimizin sıralarında xidmət edən hərbi qulluqçuların əksəriyyəti gənclərdir. Onlar ulu öndər Heydər Əliyevin ideyalarına həmişə sadiqdirlər, Vətən, xalq, dövlət qarşısında əsgəri borclarını şərəflə yerinə yetirirlər.

Əziz gənclərimiz! Siz ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunmusunuz. Əsgəri xidmət üçün hər cür şərait yaradılıb. Sizə ən müasir silahlar, döyüş texnikası, təyyarələr, helikopterlər, gəmilər və s. etibar edilib. Siz öz peşəkarlığınızı artırır, silah və texnikadan istifadə etməyin sirlərini dərindən öyrənir, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşır və ordudan sonra cəmiyyətə əsl vətənpərvərlər kimi inteqrasiya olunursunuz. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev sizin xidmətlərinizi yüksək qiymətləndirərək demişdir: "Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Onlar Vətəni qoruyurlar, düşmənlə üzbəüz mövqedə dayanırlar. Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər".

Xalqımız sizə inanır, siz isə bu inamı, bu etimadı layiqli xidmətinizlə doğruldursunuz.

İnanıram ki, siz ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə ünvanlanan bu kəlamlarını heç vaxt unutmayacaqsınız: "Sizin ən ümdə vəzifəniz Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tutmağa imkan verəcəkdir".

Sizə möhkəm cansağlığı, uzun ömür, ailə xoşbəxtliyi, doğma Azərbaycanımızın ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azadlığı uğrunda mübarizədə qələbələr qazanmağı və gənclik həvəsi ilə bundan sonra da Vətənə ləyaqətlə xidmət etməyi arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Novruz Məmmədov:

# Minsk Qrupunun həmsədrləri vasitəçilik missiyasını yerinə yetirə bilmirlər

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərindəki vəziyyət ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında müzakirə olunan qətnamələrə ATƏT-in Minsk Qrupu həmsədrlərinin mövqeyi düzgün deyil.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov söyləyib.

Son vaxtlar xüsusilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prosesləri özlərinin monopoliyasına almaq istədiklərini vurğulayan N.Məmmədov deyib: "Azərbaycanın Xarici İşlər Nazirliyi bu məsələ ilə bağlı mövqeyini bildirib. Biz Minsk Qrupundan münaqişənin həlli istiqamətində ciddi addımların atılmasını gözləyirik. Əsas məsələ budur. Münaqişənin həlli ilə bağlı heç bir addım atmayan Minsk Qrupu başqa qurumlara, təşkilatlara mane olmamalıdır. Halbuki onların əsas vəzifəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etməkdir. Başqa işlərlə məşğul olmaq lazım deyil".

"Münaqişənin həlli ilə bağlı bu günədək müxtəlif prinsiplər - Praqa prinsipi, indi Madrid prinsipi, ondan əvvəl digər yanaşmalar olub. Ancaq təəssüflər ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi və həmsədrlərin passivliyi səbəbindən münaqişə həll olunmayıb. Burada əsas məsuliyyət həmsədrlərin üzərinə düşür. Minsk Qrupunun həmsədrləri vasitəçilik rolunu nəinki yüksək, heç normal səviyyədə də yerinə yetirə bilmirlər. Atdıqları müəyyən addımlar isə müxtəlif yerlərdə müxtəlif fikirlər doğurur", - deyə Prezident Administrasiyası rəhbərinin müavini bildirib.

# "Ordu gəncləri böyük qüvvədir"

## Müdafiə Nazirliyi və Tərtər rayonu İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 2 Fevral - Gənclər Günü münasibəti ilə vətənpərvərlik bayramı keçirilib



***Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Tərtərin mərkəzi meydanındakı abidəsi önünə gül dəstələri düzür, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirir, Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika və silahlarla tanış olurlar.***

Dünənki sazaq, şaxta sovuşub. Elə bil payızın son ayıdı. Təbiət tərtərlilərin bayram ovqatının nizamını pozmaq istəməyib...

Bir qədər aralıda qarlı dağlar görünür...

Tərtər rayonunda bayram ovqatı yaşanır. Gəncliyə, gənclərə ad olan bayramdı. Bu bayramın işığı bir azdan 20 il əvvəl keçirilmiş respublika gənclərinin Birinci Forumunun işığına qarışacaq.

Bir azdan başlanacaq tədbirdə Vətənə xitabən "Sən varsan, biz varıq" kəlamı səslənəcək. Şeir biçimində səsləndiyindən duyğuları coşduracaq. İnamla, sevgilərlə səslənərək, qışın sazağında bir ocağa dönəcək. İstisi düşmənlə üzbəüz səngərlərdə də hiss olunacaq, şübhəsiz. Tədbir bir azdan başlayacaq...

Niyə məhz Tərtərdə? Bu düşündürücü sualın cavabı aparıcıların (Abdulla Qurbani, xalq artisti Pərvanə Qurbanova) təqdimatındadı: qədim, çox qədim tarixə malikdi, Borsunlu kurqanı onun hələ də açılmayan daş yaddaşıdı, Qarabağ müharibəsində ağır döyüşlərə mərdliklə sinə gərib, iki sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, 380 nəfər şəhid, 900 nəfərə yaxın əlil olub, ... Mübariz İbrahimov düşmənə Azərbaycan əsgərinin qətiyyətini burda, Çaylı kəndinin yaxınlığında tanıdıb. Bir də Aleksandr Dümanın bir kəlamını xatırladacaq aparıcı: "Yalnız Tərtəri görməyən İsveçlə öyünə bilər"...

Gənclik böyük qüvvədir. Həm də dönməz qətiyyətə, qədərsiz güvəncə, inama söykənən böyük qüvvədir. Bir neçə ay əvvəl "Sənə inanırıq, ölkə rəhbəri. Sənə güvənirik, Vətən əsgəri!" deyənlər də, onların səsinə səs verənlər də, qışın sazağını yarıb "Heydər Əliyev parkı"na tələsənlər də, burdan uzaqlarda ürəyi burayla, bu günlə döyünənlər də bir deyimin cazibəsindədi: "Ordu gəncləri böyük qüvvədir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 28-də respublika gənclərinin bir qrupu ilə görüşündə dediyi "...Gənclər isə, əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm də ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq" - fikirlərini bir azdan başlanacaq tədbirin leytmotivi bilirik. Mən də, tədbirə gələnlər də, qətiyyətini, duruşunu-baxışını gözlərimə köçürdüyüm əsgərlər də...

Parkın sağ tərəfində daşlardan dağ massivi yaradılıb. Müxtəlif silahlı əsgərlər dayanıb "dağlıq ərazidə". Döyüş növbəsindədilər sanki. Toplaşanlar əhalini, o əsgərlər ordunu təmsil edir Qarabağ müharibəsi veteranlarının, şəhid ailələrinin, ictimaiyyət nümayəndələrinin və gənclərin iştirak etdiyi bu tədbirdə. Yüksək bədii təfəkkürün - tədbirə yaradıcı münasibətin təzahürü olan ssenariyə görə, bu yozum ordu ilə xalqın birliyinin rəmzidi, şübhəsiz. Əsgərlərin duruşu-baxışı sanki dil açasıdı: "Biz varıq. Vətəni göz bəbəyi kimi qoruyacağıq!..".

Bir ana gözlərini əsgərlərdən çəkə bilmir. Qürrəylə baxır, sevgilərlə baxır. Baxır və pıçıldayır: "Boyunuza qurban olum, ay oğul!". Bu biçim sevgini ümumən tədbirə necə ad eləməyəsən, necə?..

Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun anası Mahı nənə də burdadı. İki oğlu şəhid olub: Vəzir, Əlyar. Dözümlü anadı. 96 yaşı var.

- Bunlar da mənim oğullarımdı, - əsgərləri göstərir. - Vətən dağı oğul dağından ağırdı, ay oğul. Əsgərlərimiz bu dağı anaların ömründən-günündən siləcək. Mütləq siləcək!..

"Bəşəri məhəbbətsiz Vətən sevgisi mövcud deyil", - deyir aparıcı. Gənclikdə qazanılan biliyin yaşlaşanda müdriklik olduğunu xatırladan aparıcının "Həqiqi vətənpərvər olmayan layiqli vətəndaş deyil!" kəlamı da düşüncələrin qırışığını açır...

Gənclər öz bayramlarına, yaşlılar torpaqlarımızı işğaldan azad edəcək oğullara ad olan bayramın işığına toplaşıb...

Bir azdan Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana müvafiq olaraq, Müdafiə Nazirliyi və Tərtər rayonu İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla Azərbaycan gənclərinin Birinci Forumunun 20 illiyinə və Gənclər Gününə həsr olunmuş "Ordu gəncləri böyük qüvvədir" devizi ilə kütləvi gənclik və vətənpərvərlik bayramı keçiriləcək. Son vaxtlar keçirilən vətənpərvərlik tədbirlərinin hər biri eyni mahiyyətin şaxəsi olsa da, hər biri özəl xüsusiyyətləri ilə mükəmməl bir əsər kimi tarixləşib. Bu düşüncələr içində tədbirin başlayacağı məqamın həsrətindəyik...



Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Gənclər Günü respublikamızda gənclər siyasətinin tərkib hissələrindən birinə çevrilib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Tədbirin mahiyyəti silah qüdrətindədi və çox da uzaqda olmayan səngərlərin o üzünü vahimələndirməyə də qadirdir. Zamanında ermənilər bu həndəvərlərdə ağır itkilərə məruz qalmışdılar (yadıma bir el məsəli düşür: "Su axan yerdən bir də axar")...

Park boyu respublikamızda istehsal edilən atıcı silahlar nümayiş etdirilir. 13-14 yaşlı bir yeniyetmə silahlara baxır. Dönüb dağ massivini xatırladan səmti, orda "döyüş növbəsində" dayanan əsgərləri gözdolusu süzür. Xəyalən özünü onların sırasında hiss eləyir. Bu silahların atış xüsusiyyətlərini öyrənəcəyi günə boylanır, elə bil. Bu günün gəncləri sabahın gənclərinə örnəkdi...



Tədbirdə müasir Azərbaycanın dövlətçilik memarı olan böyük tarixi şəxsiyyət Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Azərbaycan Respublikasının Dövlət himni ürəkləri coşdurur: "...Səndən ötrü can verməyə cümlə qadiriz!..".

Cəmiyyət gəncliyə güvənir, gənclik özünə, özünün timsalında əsgərlərə. Bu cazibədəyik. Aparıcılar sözün qüdrətiylə gəncliyi günümüzün göyqurşağına çevirir. Bu göyqurşağının yozumu mənəvi kamillikdi, azərbaycançılıqdı, dövlətə, dövlətçiliyə sədaqətdi, bir də torpaqlarımızın işğaldan azad ediləcəyinə dönməz inamdı...

Aparıcılar qonaqları salamlayır, çox qədim tarixə malik olan Tərtərdə tərtərliləri salamlayır, gəncliyini döyüş səngərlərində keçirmiş veteranları salamlayır, gəncləri salamlayır, bu günün işığına gəlmiş yeniyetmələri salamlayır, əsgərlərimizi salamlayır...

Park boyu düzülən əsgərlərin əllərində dalğalanan bayraqlarımız könül xoşluğudu, gözlərinə köçürmək istəyirsən bu bənzərsiz görüntünü; bayraq atributu da dağ massivində "döyüş növbəsində" dayanan əsgərlər kimi rejissor tapıntısıdı və tədbirin mahiyyətinin aşılanmasına hesablanıb. Əsgərlərin duruşundan-baxışından uca ruhların pıçıltısı biçimində bir mətləb oxunur: arzuladığımız günə az qalıb! Azərbaycan əsgərinin, azərbaycanlı gənclərin duruşu-baxışı deyir bu kəlmələri. Yerə-göyə inandığımız qədər inanırıq bu sezilən mətləbə, bu sözsüz kəlmələrə...



Tərtər rayonu İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov belə bir möhtəşəm tədbirin Tərtərdə keçirildiyinə görə Müdafiə nazirinə təşəkkürünü bildirir. Ali Baş Komandanı, qonaqları əmin edir ki, tərtərlilər də döyüş əmrinə bir nəfər kimi hazırdırlar.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev tədbir iştirakçılarına, tərtərlilərə Müdafiə nazirinin təbrikini çatdırır, ordu gənclərini və tərtərli gəncləri əlamətdar gün münasibəti ilə təbrik edərək deyir ki, bugünkü gənclər siyasətinin əsası hələ dahi rəhbərimizin Azərbaycana rəhbərlik etdiyi 70-ci illərdən qoyulub. O, azərbaycanlı gənclərin İttifaqın müxtəlif ali məktəblərində, bu sıradan ali hərbi məktəblərində təhsil almasını vacib bilirdi və bunu reallaşdırırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük tarixi şəxsiyyətin gənclər siyasətini də uğurla davam etdirir. Ordu müstəqilliyin qarantıdır. Ordumuz müstəqilliyimizi qorumağa, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.




General-mayor Hikmət Həsənov ordu ilə xalqın birliyindən, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsindən,... danışır.

Zaman-zaman mükalimələşmədə şeir daha təsirli olub. Şeir musiqi biçimində təqdim ediləndə, emosionallıqla qoşalaşan mətləb duyğuları cazibəsinə salır. Abdulla Qurbaninin Nailə Mirməmmədlinin musiqi yozumunda məzmunu qayəsi, poetik dəyəri ilə səciyyəvi "Çağırış" şeiri gizir Ağabala Abdullayevin ifasında bayramın çağırışına dönür: "Üçrəngli bayrağımızı Şuşa qalasında dalğalandırmaq vaxtıdı!". Şeir (musiqi, ifa) bu gün minləri bir boy da dikəldir, sabah milyonları dikəldəcək!..

Şəhidlər xiyabanında yandırılıb Tərtərə gətirilən məşəl həm də rəmzdi, bugünkü tədbir dövlətçiliyimiz naminə ürəyini şam-çıraq eləyənlərə ad olan tədbirdi. Məşəl elə əzəmətlə alovlanır ki!

İkiqat paralimpiya çempionu, 1-ci Avropa Oyunlarının qalibi İlham Zəkiyevin də tədbirdə iştirak etməsi toplaşanları duyğulandırır. Bu gəliş toplaşanlara nə deyir? - Məqamında keçmiş döyüşçülər də əsgərlərimizin sırasında olacaq! Bu məşəl qığılcımını ordu ilə xalqın birliyindən alıb!..

Xüsusi təyinatlıların nümayiş etdirdiyi təmrinlər heyrətləndiricidi. Onlar bu təmrinləri azyaşlı tərtərli məktəblilərin - Ülkər Abdullayevanın və Lalə Əliyevanın ifasında "Heyratı" zərb muğamının müşayiəti ilə yerinə yetirir. Sonluq bir ürək tutumunca inamdı, qürrədi, sevgidi: piramida şəkilli düzülüş, sonuncu əsgər ucalıqda Azərbaycan bayrağını dalğalandırır. Yozumu: canım bayrağımız işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanacaq!..

Aparıcıların qürurla dedikləri sözlər ürəklərin döyüntüsünə qarışır: xüsusi təyinatlılarımız ordumuzun gücünün rəmzidi, bu uşaqlar milli mədəniyyətimizin sabahlarının sədasıdı!..

Teatrlaşdırılmış tədbirlərdə hər görüntü ayrılıqda və digərləri ilə vəhdətdə böyük mətləblərin dərkinə vəsilə olur. Yaradılmış dağ massivində "döyüş növbəsi çəkən" əsgərlər kimi, respublikamızda istehsal olunmuş atıcı silahların nümayişi kimi, Şəhidlər xiyabanında alışdırılan məşəlin tədbirə gətirilməsi kimi...

Bir beyt "Heydər Əliyev Parkı"nı dəniz misallı coşdurur. Bu biçim coşqunu iki ay əvvəl Horadizdə görmüşdüm:

*Çıxsın Qarabağdan*
*yadlar, yağılar,*
*Laçın yuvasında*
*sar ola bilməz!..*

Ordu gənclərinə ünvanlanıb bu müraciət, əsgərlər bu kəlmələri çağırış bilir.

Ssenaridə nəzərdə tutulduğu kimi, aparıcının təklifiylə hamı birlikdə torpaqlarımızı işğaldan azad etməyə and içir. Bu andın bütün məmləkət boyu əks-səda verdiyinə, qətiyyəti çox da uzaq olmayan səngərlərin o üzünü üşəndirdiyinə zərrəcə şübhəm yoxdu...

Silahlı Qyvvələrin Mahnı və Rəqs Ansamblının (bədii rəhbəri əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyevdir) solistlərinin ifasında səslənən mahnılar, milli rəqslər toplaşanlara könül xoşluğu verir.

* * *

Bayram "Heydər Əliyev muzeyi"ndə davam edir. Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev müxtəlif bölgələrdə xidmət edən bir qrup hərbi qulluqçuya "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal, qiymətli hədiyyələr və fəxri fərmanlar təqdim edir.

General-leytenant Kərim Vəliyev təqdimat mərasimində qeyd edir ki, Silahlı Qüvvələrimizin sıralarında xidmət edən hərbi qulluqçuların əksəriyyəti gənclərdir. Gənclər ölkənin gələcəyini, inkişafını şərtləndirən aparıcı qüvvədir. Azərbaycan gənclərinin yüksək intellektli vətəndaş kimi formalaşmasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasəti mühüm rol oynayır.

General-mayor Rasim Əliyev bir qrup tərtərli gəncə və keçmiş döyüşçülərə yeni təsis olunmuş "Fədai" medalını təqdim edir.

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Kamandar QULİYEVİNDİR**

# Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri ilə görüş keçirilib



***Xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlikləri nəzdində fəaliyyət göstərən 15 ölkənin hərbi attaşesi və Hərbi Attaşelik Aparatlarının nümayəndələri Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin yeni binası ilə tanış olublar.***

Qonaqlar ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat yolunu və dövlətçilik fəaliyyətini əks etdirən xatirə zalını ziyarət edib, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici siyasətini əks etdirən stendlərlə tanış olub, eləcə də onlara Azərbaycan tarixi, dövlət rəmzləri və atributları haqqında ətraflı məlumat çatdırılıb.

Hərbi əməkdaşlıq çərçivəsində danışıqların keçirildiyi görüş otaqları, müxtəlif tədbirlərin təşkili üçün müasir texniki vasitələrlə təchiz olunmuş sinif və konfrans zalları qonaqlara təqdim olunub.

Görüşün proqramına əsasən, qonaqlara idarənin yerləşdiyi hərbi şəhərciyin yaranma tarixi barədə məlumat verilib və 2016-cı il ərzində hərbi əməkdaşlıq sahəsində nəzərdə tutulan tədbirlər planı təqdim edilib.

Sonda xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Döyüş hazırlığı*

# Heyətlər peşəkarlardan komplektləşdirilib

Biz hərbi hissəyə gələndə hava hələ işıqlaşmamışdı. Nəzarət-buraxılış məntəqəsində gəlişimizin məqsədini bildirəndə şəxsi heyətin yerbəyerə düzüldüyünü bildirdilər. Hərbi hissə komandiri gün ərzində görüləcək işlərlə bağlı bölmə komandirlərinə və xidmət rəislərinə tapşırıqlar verirdi.

Burada hər şeydən öncə diqqətimizi çəkən ərazidəki hərbçisayağı səliqə-sahman oldu. Səhərin erkən vaxtı olmasına baxmayaraq, hərbi hissədə hər kəs öz vəzifəsinin icrası ilə məşğul idi. Bəs tankçılar hazırda hansı qayğılarla yaşayırlar? Təbii ki, məni şəxsi heyətin döyüş hazırlığının vəziyyəti, bununla bağlı görülən tədbirlər daha çox maraqlandırırdı.



- Bütün Silahlı Qüvvələrimizdə olduğu kimi, tankçılarımızın da qarşısında duran başlıca vəzifə döyüş hazırlığını artırmaq, praktik vərdişləri möhkəmlətməkdir, - bizimlə söhbətində zabit Rəşad Nəsirov deyir. - Ötən döyüş hazırlığı ilini müsbət göstəricilərlə başa vurmuşuq. Hazırda Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun olaraq, şəxsi heyət gündəlik dərslərə, praktik məşğələlərə cəlb edilir. İlin əvvəlindən yüksək ovqatla yeni tədris ilinə başlamışıq.

Zabit Rəşad Nəsirovu hələ başqa hərbi hissədə xidmət etdiyi vaxtdan tanıyıram. O zaman onu bacarıqlı və işgüzar zabit kimi təqdim etmişdilər. Ötən müddət ərzində müşahidələrim deyilənlərin həqiqət olduğunu göstərdi. Doğrudan da, hər bir kollektivdəki sağlam mənəvi mühit komandir heyətindən, zabitlərdən çox asılıdır.

Tankçılar üçün ötən 2015-ci il ərzində nəzərdə tutulmuş bütün döyüş hazırlığı tədbirləri, o cümlədən sürücü-mexanik və tuşlayıcılarla praktik sürücülük, atış dərsləri və digər məşğələlər uğurla həyata keçirilib. İkinci yarımillikdə döyüş hazırlığı tədbirlərindən sonra taborun döyüş atışlı taktiki təlimi zamanı yuxarı komandanlığın rəhbərliyilə keçirilən manevrlərdə şəxsi heyət özünü yalnız yaxşı tərəfdən göstərməyi bacarıb. Təlimin planına uyğun həm də gecə atışları keçirilib. Şəxsi heyət çöl çıxışında döyüş vəziyyətinə maksimum yaxınlaşdırılmış şəraitdə fəaliyyət göstərib və tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

Hərbi hissədə öz vəzifəsini bilən və peşəsinə məsuliyyətlə yanaşan kollektivin formalaşdığını tankçıların nailiyyətləri də bariz şəkildə göstərir. Təkcə bir faktı qeyd etmək yetər ki, kollektivin döyüş bacarığı barədə təsəvvür yaransın. Ötən ilin sonlarında yuxarı komandanlığın nümayəndələrinin iştirakı ilə tuşlayıcı-operatorlardan atəş hazırlığı üzrə məqbullar qəbul edilib. Onların böyük əksəriyyəti həmin yoxlamada yüksək nəticə göstərib.

Bu uğurların bir səbəbi də kadrların təkmilləşdirilməsində nəzərə çarpan yeniliklərdir. Silahlı Qüvvələrimizdə aparılan son islahatlar nəticəsində hərbi hissələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının sayı xeyli artıb, hərbi texnika və silahları hərəkətə gətirənlərin ustalığı xeyli yüksəlib. Tankçılar kollektivində isə şəxsi heyət, demək olar ki, peşəkarlardan - zabit, gizir və müqavilə ilə hərbi xidmətə qəbul edilmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından komplektləşdirilib. Bu, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəlməsinə zəmin yaradıb.

Yanvarın ilk günlərində tankçılar yeni tədris yarımilliyinə həsr edilmiş tədbir keçiriblər. Həyəcan siqnalı ilə bölmələrin hazırlıq səviyyəsi yoxlanılıb. Bütün şəxsi heyət həyəcan siqnalı ilə cəmləşmə rayonuna çıxarılıb. Tankçıların burada döyüş fəaliyyəti qiymətləndirilib. Yeni tədris ilinə işgüzar ovqatla başlayan tankçılar kollektivi fəaliyyətini günün nizam qaydalarına uyğun qurub.

Biz hərbi hissədə olarkən döyüş və ictimai-siyasi hazırlıq dərsləri keçirilirdi. Qrup rəhbərləri tərəfindən şəxsi heyət öncə tibbi hazırlıq, sonra isə atəş hazırlığı məşğələlərinə cəlb edilmişdi. Atəş hazırlığı dərslərində tank komandirləri və tuşlayıcılar birlikdə, sürücü-mexaniklər isə ayrıca texniki hazırlıqla məşğul olurdular.

- Şəxsi heyətdə ruh yüksəkliyi doğuran bir səbəb də odur ki, döyüş texnikasının hamısı saz vəziyyətdədir, - zabit Şücaət Dəmirov bildirir. - İstənilən anda səxsi heyət tam tərkibdə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

Hərbi hissədə nümunəvi xidmətilə seçilən hərbi qulluqçularla maraqlandıq. Tankçıların qazandığı uğurlarda, təbii ki, onların əməyi böyükdür. Tank bölüyünün komandiri baş leytenant Elçin Abdullayev, kiçik leytenant Radik Nurmətov, tank komandirləri gizir Məftun İbrahimov, Nahid Kərimov və başqaları belələrindəndir. Bu zabit və gizirlər vətənpərvər, verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbçilərdir. Hər biri öz davranışı, intizamı və bacarığı ilə bütün şəxsi heyətə nümunədir.



Təbii ki, hər bir işin bəhrəsi gərgin zəhmət nəticəsində qazanılır və hərbi xidmətdə də belədir. Hazırda hərbi kollektivdə döyüş hazırlığı dərsləri öz axarı ilə gedir və qışın oğlan çağında havanın necə keçməsindən asılı olmayaraq, şəxsi heyət texnikanı idarə etmək, silahlardan sərrast atmaq, taktiki bacarığını artırmaq məqsədilə məşğələlərdə iştirak edir. Axı hərbi əməliyyatlar zamanı münasib hava gözləmirlər, kim yaxşı hazırlaşırsa, döyüş meydanında o da qələbə qazanır.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu", fotolar müəllifindir**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən dünyada və regionda mövcud hərbi-siyasi vəziyyət, Azərbaycan Respublikasının dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi sahəsində gördüyü işlər barədə dövri mətbuatda dərc olunan materialları, xidməti fəaliyyəti tənzim edən rəhbəredici sənədləri diqqətlə öyrənməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

***Suallar:***

***1. Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.***

***2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının borcudur.***

*Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir*

Keçmiş ittifaq süquta uğradıqdan sonra Azərbaycan Respublikası da öz dövlət müstəqilliyini bərpa etdi. Həmin günlərdə ölkəmiz Ermənistanla müharibə vəziyyətində idi. Həmişə bərəkətli torpaqlarımızda gözü olan ermənilər yaranmış şəraitdən yararlanaraq öz havadarlarının köməyi ilə ölkəmizin 20 faiz ərazisini işğal etdilər. O zaman Azərbaycana rəhbərlik edən şəxslər qətiyyətsizlik və iradəsizlik nümayiş etdirərək Silahlı Qüvvələri yarada bilmədilər. Bundan istifadə edən erməni qəsbkarları isə öz məkirli niyyətlərini həyata keçirdilər.

1993-cü ilin iyununda ölkədə vəziyyət çox gərgin xarakter aldı. Yenicə müstəqillik qazanmış Azərbaycan dövləti dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qaldı. Zaman və vəziyyətin ağır durumu, həyatın özü tələb edirdi ki, xalqı bu fəlakətdən qurtarmağa qadir olan bir şəxsiyyət hakimiyyətə gəlsin. Bu, həmin dövr idi ki, ölkədə hərc-mərclik, hakimiyyətsizlik hökm sürürdü. Məhz ölkəmiz, Vətənimiz üçün belə çətin və keşməkeşli bir zamanda milyonların dəvəti və təkidi ilə ümummilli liderimiz Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Bununla da Azərbaycan dövləti və dövlətçiliyimiz təhlükədən xilas oldu. Ölkəmizin başının üstünü almış qara buludlar dağıldı. Hakimiyyətə qayıdandan sonra heyrətamiz iradə, qətiyyət, güc nümayiş etdirən ümummilli liderimiz ölkəni düşdüyü fəlakətdən qurtarmağa müvəffəq oldu. Ulu öndərimiz hakimiyyətə qayadan kimi gərgin və səmərəli islahatlara başladı. Uğurla həyata keçirilən bu islahatlar sayəsində qısa müddət ərzində ölkəmizdə həyatın bütün sahələrində dönüş yarandı. İstər hüquqi dövlət quruculuğu istiqamətində, iqtisadiyyatın dirçəldilməsi yolunda, istərsə də cəmiyyətdə cinayət hallarının qarşısının alınması və həmçinin ən başlıcası, ordu quruculuğu istiqamətində çox inamlı addımlar atılmağa başlandı.

1993-cü il noyabrın 2-də ümummilli liderimiz ordunun qurulması və daha da möhkəmlənməsi üçün xalqa tarixi müraciət etdi. Tarixin bu çətin anında Ali Baş Komandanın müraciətindən sonra xalqın qeyrətli oğulları ümummilli liderimizin səsinə səs verərək ordu sıralarına gəldilər. Qorxmadan, çəkinmədən silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar. Bundan sonra ordu quruculuğu istiqamətində çox mühüm və vacib işlər aparıldı. Bəzi şəxslərin mənafeyinə xidmət edən bir çox qanunsuz hərbi hissə və birləşmələr ləğv edildi. Əvəzində isə müasir tələblərə cavab verən hərbi hissələr yaradılmağa başlandı. Qısa müddət ərzində səngimək bilməyən qanlı döyüşlərdə əsaslı dönüş yarandı.

Ulu öndərin bu tarixi müraciəti, hərbi hissələrdə zabit və əsgərlərlə keçirdiyi görüşlər Azərbaycan Ordusunun formalaşmasında kifayət qədər ciddi baza rolunu oynadı. Ordu quruculuğunun daha da möhkəmləndirilməsi məqsədi ilə bir sıra mühüm qərar və qanunlar qəbul edildi. Ümummilli liderimiz Heydər Əliyevin qanlı döyüşlər gedən gərgin günlərdə Beyləqan-Füzuli istiqamətində döyüşən hərbçilərlə olan görüşləri, döyüşçülərə verdiyi məsləhət və tövsiyələr ordu quruculuğuna çox böyük təkan verdi. Ali Baş Komandanla bu görüşlərdən ruhlanan zabit və əsgərlər döyüşlərə daha da inamla atıldılar.

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs elan olunduqdan sonra Azərbaycanda ordu quruculuğu çox sürətləndi. Uğurla həyata keçirilən islahatlar nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı getdikcə yaxşılaşdı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daha da artdı, döyüş ruhu, qələbə əzmi yüksəldi. Bu gün tam inamla demək olar ki, müasir, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Məhz ulu öndər Heydər Əliyevin dövlətimizin rəhbəri olduğu dövrdə Azərbaycan Ordusu yeni, müasir silahlarla təchiz olunmağa başladı, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsinin əsası qoyuldu. Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığı müasir tələblər səviyyəsinə çatdırıldı, şəxsi heyətin döyüş ruhu möhkəmləndi.

"Silahlı Qüvvələr haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, ordu quruculuğunun əsas prinsiplərindən biri yüksək döyüş hazırlığıdır.

Döyüş qələbə qazanmağın yeganə vasitəsidir. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi, bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir.

Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Müasir ümumqoşun döyüşündə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Ümumqoşun döyüşü tanklardan, piyadaların döyüş maşınlarından (zirehli transportyorlardan), artilleriyadan, hava hücumundan müdafiə vasitələrindən, təyyarələrdən, helikopterlərdən, digər döyüş texnikasından və silahlardan istifadə etməklə döyüşdə iştirak edən bütün qoşunların birgə səyi ilə aparılır.

Döyüşün qətiyyətliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə döyüşçülərimizin vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur.

Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzən döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını pis bilmələri və ona görə həmin imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə döyüşlər apara-apara formalaşan Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi.

1993-cü ildən etibarən Azərbaycanın dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətini yüksəltmək, Silahlı Qüvvələrin döyüş hazırlığını artırmaq üçün apardığı ardıcıl və məqsədyönlü iş bu gün öz bəhrəsini verir.

*Hərb işini vicdanla öyrənmək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının borcudur*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulduğu, torpaqlarımızın 20 faizdən çoxunun düşmən tapdağı altında olduğu bir zamanda hər bir Azərbaycan əsgərinin Vətən qarşısında bir müqəddəs borcu var - hərb işini vicdanla öyrənmək və Vətənə sədaqətlə xidmət etmək.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə hərbi and içir. Hərbi and Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə qorumaq üçün hərb işini vicdanla öyrənməyi, əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı hərbi qulluqçudan tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin iyununda Naxçıvan qarnizonunun şəxsi heyəti ilə görüşərkən dediyi: "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən", sözləri bu gün də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini hərbi qulluqçu yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm təkmilləşdirməli, ona tapşırılmış silah, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycanda ordu quruculuğu prosesini öz diqqət mərkəzində saxladığını bəyan edərək "ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır", - deyə bildirmişdi.

Azərbaycan Respublikası Prezidentinin və Müdafiə nazirinin Silahlı Qüvvələr qarşısında qoyduqları əsas vəzifələrdən biri də birləşmələrin, hissələrin və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz bilik, bacarıq və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlığını artırmalıdır.

Bu günləri ümummilli liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında, başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da uğurlu islahatlar həyata keçirilir, Silahlı Qüvvələrə ayrılan vəsait ildən-ilə artırılır. Güclü iqtisadi inkişafın nəticəsi olaraq ölkənin hərbi qüdrətini artırmaq son onilliklərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi fəaliyyətinin əsas istiqamətlərindən biri kimi diqqəti cəlb etmişdir. Bu bir həqiqətdir ki, Azərbaycanın ildən-ilə artan iqtisadi inkişaf tempi Silahlı Qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynamış, bütün sahələrdə olduğu kimi, ordunun da maddi-texniki bazasının yüksəldilməsinə və şəxsi heyətin sosial rifahının yaxşılaşdırılmasına yol açmışdır.

Əgər 2007-ci ildə dövlət büdcəsindən ordu quruculuğuna 1 milyard dollar ayrılmışdırsa, indi bu vəsait dəfələrlə artırılaraq 4 milyard dolları keçmişdir. Ötən 10 il ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi və müdafiə qüdrətinin artması, təlimlərdə və təhsildə qazanılmış böyük nailiyyətlər hər bir Azərbaycan əsgərində qürur hissi doğurur. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanın yalnız hərbi xərcləri Ermənistanın dövlət büdcəsindən çoxdur.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2015-ci ilin yekunlarına həsr edilmiş iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev qeyd edib ki, Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. "Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlüyünü təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: Erməni əsgərləri hansı torpaqlarda həlak olurlar? Azərbaycan torpaqlarında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər".

İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuların Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu surətdə dərk etməsi üçün planlaşdırılır və keçirilir. Hər bir əsgərə müharibənin ən başlıca xüsusiyyətini - "Döyüşdə sən birinci düşməni məhv etməsən, o səni öldürəcək" fikrini anlatmaq lazımdır.

Dərsin gedişi zamanı hər bir dinləyici əsgərə ən müqəddəs borcu olan Vətənə təmənnasız xidmət etmək, onun əzab-əziyyətinə sevərək qatlanmaq, komandirlərin verdiyi tapşırıqları sözsüz və vaxtında yerinə yetirmək kimi hisslər aşılanmalıdır.

Qrup rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha ümummilli liderimiz Heydər Əliyevin sözlərini xatırlatmalıdır. "Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müvafiq silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik".

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

*Ordu və cəmiyyət*

# "Torpaqlarımız əsgərlərimizin qəhrəmanlığı sayəsində qayıdacaq"



*Filologiya üzrə fəlsəfə doktoru Salatın Alı qızı Əhmədova Qazax rayonunun Poylu qəsəbəsində dünyaya göz açıb. 1974-1980-ci illərdə Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və biblioqrafiya fakültəsini bitirib. Azərbaycan Memarlıq və İnşaat Universitetində, Xətai adına kütləvi kitabxanada müxtəlif vəzifələrdə çalışıb. Salatın xanım hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili kafedrasının müdiridir. 20-dən çox kitabın müəllifidir.*

*Salatın xanımla iş yerində görüşdük. Söhbətə "Haradan başlanır Vətən" sualı ilə "cığır" saldıq. O sualı özünəməxsus cavablandırdı:*

- Vətən doğulduğun ailədən, göz açdığın evdən, bütövlükdə səni əhatə edən el-obadan başlanır.

***- Bəs Vətən sevgisi nədir və o necə formalaşır?***

- Vətən sevgisi bilavasitə insanın xarakterinin, dünyagörüşünün, torpağa, yurda bağlılığının göstəricisidir. Düşünürəm ki, insanda vətənpərvərlik hissləri birdənbirə deyil, tədricən formalaşır. Sevimli şairimiz Məmməd Araz gözəl deyib:

*Vətən daşı olmayandan,*
*Olmaz ölkə vətəndaşı.*

İnsan Vətənə sevgisini konkret əməli ilə bildirir. Mən də yurduma məhəbbətimi işimlə, bir də Vətəni tərənnüm edən, onun yaralarına məlhəm olan yazılarımla ifadə edirəm. Qarabağ müharibəsi mövzusunda povestlərin, roman və hekayələrin müəllifiyəm.

***- Qarabağ müharibəsində qohumlarınızdan itki verən oldumu?***

- Yaxın qohumum Qurban Əhmədov Əfqanıstan müharibəsindən sağ-salamat qayıtmışdı. Qarabağa erməni hücumları başlanandan da silaha sarılıb əvvəlcə Naxçıvan, sonra isə Qarabağ uğrunda vuruşdu. Atəşkəsdən sonra evə dönən Qurban iştirakçısı olduğu döyüşlərdən ürək ağrısı ilə söz açırdı. Onun müharibə haqqında danışdığı hadisələr sonradan hekayələrimin, povestlərimin və bir romanımın mövzusu oldu. Ona qulaq asdıqca Qarabağda öldürülən günahsız insanlar, yerlə-yeksan olunmuş evlər, tarixi abidələr, güllələnmiş heykəllər və nəhayət, dünyanı sarsıdan Xocalı soyqırımını ürək ağrısı ilə xatırlayıram.

***- Əsərlərinizi oxuduqca hiss edirəm ki, Qarabağ mövzusu yaradıcılığınızda əsas yer tutur.***

- Həmişə Qarabağ müharibəsindən hekayələr yazıb dövri mətbuatda çap etdirirdim. Sonra bu hekayələri "Başdaşı əhvalatı" adlı kitaba topladım. "Heydər Əliyev fondu"nun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya dəstək" kampaniyası bu kitabı bəyəndi. Onu rus və ingilis dillərinə tərcümə etdirdilər. Türkiyənin Azərbaycandakı səfirliyi isə bu kitabı türkcəyə uyğunlaşdıraraq çap etdirdi. "Başdaşı əhvalatı" kitabı Çanaqqala hadisələrinin 100 illiyi ilə bağlı tədbirlərdə də nümayəndə heyətlərinə paylandı, dünyaya yayıldı. Bundan başqa "Kişilik səngəri" romanım çapdan çıxdı. Əsərin mərkəzində Qarabağ müharibəsi zamanı baş vermiş hadisələr dayanır.

***- Vaxt keçdikcə də yeni əsərlər yaranır...***

- Ədəbiyyatşünas alim G.Pənahin "Tanrının unutduğu Xocalı", istedadlı jurnalist Z.Məhərrəmlinin "Döyüşə qızlar gedir", mərhum şairə N.Günün "Xocalı harayı" simfoniyası, Elxan Elatlının bir neçə əsəri müharibədən bəhs edir. M.Abdulla, Ə.Xələfli kimi yazarların əsərləri də müharibə mövzusuna köklənib. Adını çəkdiyim bu əsərlərdə vətənpərvərlik mövzusu, müharibənin vurduğu yaralar sənətkarlıqla qələmə alınıb.

***- Folklorumuzda qəhrəmanlıq nümunələri kifayət qədərdir.***

- Bəli, düzgün deyirsiniz, folklorumuz çox zəngindir. Əvvəlkilər nəvələrinə qəhrəmanlıq nağılları danışardı. Bu nağıllar uşaqların igid və cəsur böyümələrinə təsir edirdi. Uşaq nənəsindən, babasından eşitdiyi nağılları heç vaxt unutmur. Təəssüf ki, indiki nənələr, babalar müasirləşiblər. Nağıl danışmağı yadırğayıblar. Bəziləri deyir ki, indi nağıl vaxtı deyil, texnika əsridir. Uşaqlar da valideynləri kimi telefonla, internetlə məşğul olurlar. Canlı görüşlər, ünsiyyət yox dərəcəsindədir. Məncə, vətənpərvərlik hissi gənclərə erkən yaşlarından aşılansa, daha səmərəli olar. Bu sahədə, müharibə mövzusunda yazılmış kitablar onların fikirlərinin formalaşmasına çox böyük təsir göstərə bilər. Unutmayaq ki, oğlan uşaqları sabahımızın əsgərləridir.

***- Yəqin razılaşarsınız ki, gənclərin vətənpərvərlik ruhunda böyümələri üçün mətbuat və televiziyanın rolu danılmazdır.***

- Gənclərə döyüş ruhunun aşılanmasında mətbuat və televiziya çox işlər görə bilər. Təəssüf ki, bu gün televiziyamız çox şit, bayağı verilişlərlə doludur. Mənasız seriallar, toyxananı xatırladan musiqi verilişləri gənclərin zövqünü korlayır. Tez-tez vətənpərvərlik mövzusunda müsabiqələr keçirmək, fərqlənən gəncləri mükafatlandırmaq heç də pis olmaz. Mətbuat da bu televiziyadan geri qalmamalıdır.

***- Cəbhədə atəşkəs rejimi hökm sürsə də, güllə səsləri tez-tez eşidilir.***

- Bu xəbərləri böyük narahatlıqla izləyirəm. Düşmən daim atəşkəs rejimini pozmağa cəhd göstərir. Cəsur əsgərlərimiz isə erməniləri dəqiq atəş zərbələri ilə susdururlar. İstər Qarabağda, istərsə də Qazax, Tovuz, Naxçıvan bölgələrində gedən döyüşlər, pozulan atəşkəs qəlbimizdə ermənilərə qarşı intiqam hissini daha da gücləndirir. Torpağımız düşmən tapdağı altında inildəyir. Dağıdılmış yurd yerləri göz dağımızdır. İnanıram ki, bu müsibətlərə, ermənilərin azğınlıqlarına cəsur Azərbaycan əsgərləri layiqli cavab verəcəklər. Çünki onlar səngərlərdə ayıq-sayıq dayanır, düşmənin hər hərəkətinə cavab verirlər.

***- Getdikcə ordumuz güclənir, formalaşır. Yəqin ki, müharibə mövzusunda yazan bir ziyalı, bir yazıçı kimi siz də bunu hiss edirsiniz.***

- Doğrudan da, son dövrlərdə ordumuz xeyli güclənib. Müasir silah-sursat, döyüş texnikası, qırıcı təyyarələr alınır. Orduda nizam-intizam möhkəmlənir. Azərbaycan xalqı orduya güclü dəstək verir. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi sahəni daim diqqətdə saxlayır. Nizami ordumuza görə qəlbimizdə sevinc duyulur, qürur hissi keçiririk. İnanırıq ki, gün gələcək, itirdiyimiz torpaqlar igid oğullarımızın şücaəti və qəhrəmanlığı sayəsində geri alınacaq. Yurdumuzu qoruyan Azərbaycan əsgərinə uğurlar arzulayıram!

**- Müsahibəyə görə sağ olun.**

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan əsgəri şəhid olub

Yanvarın 29-da saat 15.00 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz əsgər Səfərov Nahid Fikrət oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Dağlıq Qarabağa aidiyyəti olmayan bölgədə bu kimi təxribatın törədilməsi üçüncü tərəfin münaqişəyə cəlb edilməsi məqsədini daşıyır. Narahatlıq doğuran həm də odur ki, hər dəfə beynəlxalq qurumlar yalnız erməni tərəfi itki verdikdə hadisəyə reaksiya göstərir.

Bildiririk ki, Silahlı Qüvvələrimiz tərəfindən cavab tədbirləri görüləcəkdir.

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər planı imzalayıblar

2016-cı ildə Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Plana əsasən, keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər həyata keçiriləcək.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***2 fevral 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 125 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Ayqepar, Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Koxanəbi, Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Yarımca, Çaylı, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 126 dəfə atəş zərbəsi endirib.



# Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 1-dən 3-dək Roma şəhərində (İtaliya) NATO Müdafiə Kollecinin ali kurs dinləyiciləri üçün xarici dövlətlərə səfərlərin planlaşdırılması konfransı, fevralın 1-dən 5-dək Ankara şəhərində (Türkiyə Respublikası) terrorçuluqla mübarizə kursu, fevralın 1-dən 12-dək isə kiber müdafiə kursu, fevralın 1-dən martın 4-dək İstanbul şəhərində (Türkiyə Respublikası) partlayıcı maddələrin aşkarlanması kursu keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# Müdafiə Nazirliyi "NAZ-Lifan" markalı 50 avtomobil almağı planlaşdırır



Müdafiə Nazirliyi yerli istehsal olan, Azərbaycanda yığılan və quraşdırılan nəqliyyat vasitələrinə, hərbi və xüsusi texnikaların istifadəsinə daim üstünlük verir.

Nazirliyin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, son iki ildə qoşunlar Azərbaycanda hazırlanan yüksək keçidli, praktiki baxımdan sərfəli, qənaətcil və yerli iqlim şəraitinə cavab verən "MAZ", "KamAZ" markalı avtomobil və xüsusi texnika ilə təmin olunub. Bu texnikalar qısa müddətdə sınaqdan çıxarılıb və müsbət rəy qazanıb.

Artıq bir ildən çox müddətdir ki, qoşunlarda, həmçinin "NAZ-Lifan" markalı minik avtomobillərindən də istifadə edilir və onların praktikliyi sübut olunub.

Yaxın vaxtlarda sərəncamdakı sıradan çıxmış, yaxud istismar müddəti bitmiş və qeydiyyatdan silinməyə hazırlanan minik avtomobillərinin "NAZ-Lifan" maşınları ilə əvəzlənməsi nəzərdə tutulub. İlkin mərhələdə bu tip 50 avtomobilin alınması planlaşdırılır.

# Xarkovda Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin xatirəsi yad edilib

Yanvarın 28-də Xarkovdakı "Dostluq" Azərbaycan-Ukrayna cəmiyyətinin idarə heyətinin üzvləri Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin memorial lövhəsinin önünə çiçəklər qoyub, nurlu xatirəsini yad ediblər. Tədbirdə, həmçinin Azərbaycanın Xarkovdakı Fəxri Konsulluğunun əməkdaşları, Milli Qəhrəmanın nəvəsi Vlada Seryogina iştirak ediblər.

Xatırladaq ki, Viktor Seryoginin xatirə lövhəsi vaxtilə onun Xarkovda yaşadığı binaya - Studençeskaya küçəsindəki 4 nömrəli evin fasadına 2004-cü ildə vurulub. Xatirə lövhəsinin müəllifi "Dostluq" cəmiyyətinin idarə heyətinin üzvü, tanınmış heykəltəraş, Ukraynanın xalq rəssamı Seyfəddin Qurbanovdur.

Viktor Seryogin Dağlıq Qarabağda igidlik və rəşadət göstərib, yüksək peşəkarlıq nümayiş etdirib. Ölümündən sonra Azərbaycan Milli Qəhrəmanının "Qızıl Ulduz" medalı onun ailəsinə 2002-ci yanvarın 3-də təqdim edilib.

Xarkov vilayətində yaşayan azərbaycanlılar Viktor Seryoginin xatirəsini daim ehtiramla yad edirlər.

*Vətənpərvərlik*

# Sabahımızın etibarlı gəncliyi

***Təhsil millətin gələcəyidir. Hər bir ölkənin və xalqın tərəqqisində təhsilin xüsusi rolu, əhəmiyyəti həmişə yüksək dəyərləndirilib. Bir millətin mövcudluğu üçün təhsilin inkişafı vacib şərtdir.***

Ezamiyyətdə olduğum müddətdə Neftçala rayonundakı 1 saylı tam orta məktəbə getdim. Öncə məktəbin direktoru Ülviyyə Abdullayeva ilə səmimi bir söhbətimiz oldu. Direktor bildirdi ki, əgər biz ölkəmizin inkişafını istəyiriksə, hər şeydən çox təhsilə fikir verməli və onun inkişafına səy göstərməliyik. O, ümummilli liderimiz Heydər Əliyevin sözlərini misal çəkərək söhbətinə davam etdi. "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq". Xalqımız müstəqillik qazandıqdan sonra təhsildə əldə edilmiş nailiyyətlər ulu öndərin adı ilə bağlıdır. Ümummilli liderin təhsilin məzmunu, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin vəzifələri barədə söylədiyi dəyərli fikirlər hər zaman bizim üçün önəmlidir. Hazırda onun siyasi kursunun layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin də təhsilə olan diqqət və qayğısı danılmazdır. Dövlət büdcəsində təhsil xərcləri hərbi xərclərdən sonra ikinci yerdədir. Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı, çox güman ki, təhsil xərcləri birinci yerdə olardı.

Əslində məktəbə gəlişim səbəbsiz deyildi, rayon İcra Hakimiyyətində məsul şəxslərdən biri bu təhsil ocağında hərbi vətənpərvərlik tərbiyəsinin, gənc nəslin ordu həyatına hazırlığının yüksək səviyyədə olduğunu bildirmişdi. Öyrəndim ki, rayon üzrə "Şahinlər" və "Cəsurlar" hərbi idman yarışlarında məktəbin yetərli uğurları vardır.

- Məktəbimizin beş şəhid məzunu var, - deyir Ülviyyə xanım. - Şəhidlik zirvəsinə ucalan məzunlarımız bizdə qürur və iftixar hissi yaradır. Onların ailələri anım günlərində və digər əlamətdar günlərdə məktəbə dəvət olunurlar ki, bu da şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə öz töhfəsini verir. Şagirdlərimiz hər dərs gününə Dövlət himnimizi oxuyaraq başlayırlar. Sizə tam səmimiyyətimlə bildirirəm ki, birinci sinif şagirdlərimiz belə keçmişimiz, işğal olunmuş torpaqlarımız haqqında məlumatlıdırlar.

Sonra dərslərdə iştirak edib müəllimlərlə söhbətləşirik. Tarix fənnini tədris edən Həqiqət Məmmədova 40 ildir ki, müəllim işləyir. O deyir ki, ən əsas vəzifə cəmiyyətimizə, xalqımıza dəyərli vətəndaşlar hazırlamaqdır. "Bunun üçün də üzərimizə çox böyük məsuliyyət düşür. Gənclərimiz vətənpərvər ruhda böyüməli, tariximizi yaxşı bilməlidirlər. Çünki onların mənəviyyatı keçmişimizi dərindən öyrənməklə bağlıdır. Milli ideologiyamızı geniş təbliğ etmək üçün tariximizin öyrənilməsinə ciddi fikir veririk. Hər dərsdə mənfur düşmənimizin əsrlərdən bəri xalqımızın başına gətirdiyi faciələrə, düşmən tapdağında qalan rayonlarımıza, talan edilən yeraltı və yerüstü sərvətlərimizə toxunuruq. Səfəvilər dövründən bu günə kimi 21 dəfə parçalanmaya məruz qalan Azərbaycanımızın faciələrlə dolu tarixi şagirdlərimizin yaddaşında silinməyən bir səhifə olmalıdır. Şagirdlərimiz düşməndən qisas almaq arzusu ilə yaşadıqlarından onların timsalında qürurlu, vətənpərvər gəncliyimiz yetişməkdədir".

Məktəbin sevilən müəllimlərindən olan Dilarə Səfərova isə şagirdlərə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir. 1990-cı il 20 Yanvar faciəsinin canlı şahidi olmuş müəllim şagirdlərimizin vətənpərvər ruhda böyüməsindən, onları davamlı olaraq rayondakı Heydər Əliyev Mərkəzinə və Muzeyinə aparmalarından, şəhid ailələri və müharibə əlilləri ilə görüşlərin keçirilməsindən söz açdı. "Hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə dövləti, milləti üçün dəyərli işlər görməkdir. Hazırkı dövrdə Azərbaycan gənclərinin vətənpərvərlik tərbiyəsi daha mühüm əhəmiyyət kəsb edir. Dərsliklərimizdə də gənclərimizin vətənpərvər ruhda böyüməsinə təsir edəcək yetəri qədər vəsait var. Hər dərs saatında mənfur düşmənlərimizin zaman-zaman xalqımızın başına gətirdiyi müsibətlərə toxunuruq. Məktəbimizdə istedadlı gənclər yetişir və biz gələcəkdə onların böyük nailiyyətlər əldə edəcəklərinə inanırıq".

Bir hərbi jurnalist olaraq mənim üçün daha çox önəm kəsb edən bir sahəyə - gənc nəslin ordu həyatına hazırlanmasına diqqət yetirirəm. Öyrənirəm ki, gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris etmək ehtiyatda olan mayor Cavid Babayevə həvalə olunub. Bu dəyərli ənənənin bir çox məktəblərdə davam etdirilməsi məni çox sevindirir.



Cavid müəllim Moskva Ali Ümumqoşun Komandirlər Məktəbini bitirib. Qarabağ müharibəsində, Horadiz istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. İki qardaşı müharibə veteranı, bir oğlu hərbçi olan müəllimin o biri oğlu da hazırda ön xətdə Vətənə müqəddəs əsgəri borcunu yerinə yetirir.

"Bizim ən ümdə vəzifəmiz hər bir gənci orduya, Vətənə xidmətə hazırlamaqdan ibarətdir, - deyir hərbi rəhbər. - Yaşadığımız dövr, doğrudan da, gənc nəsli erkən yaşlarından hərbi ruhda böyütməyi tələb edir. Bu günümüzün şagirdlərini psixoloji baxımdan hərbi həyata hazırlamaq vacibdir. Hazırda ordumuz regionun ən güclü ordusudur. Ali Baş Komandan və Müdafiə nazirinin orduya olan diqqət və qayğısı, şəxsən nazirin bayram günlərini səngərdə əsgərlərimizlə birgə keçirməsi vətənpərvərlik baxımından dəyərli nümunədir. Hərbi hissələrdə davamlı olaraq "Açıq qapı" günlərinin keçirilməsi də ictimaiyyətlə əsgərlərimizin gündəlik məişəti ilə yaxından tanış olmağa imkan yaradır".

Keçmiş döyüşçü olan müəllimin söhbətinə görə, ötən dövrlərlə müqayisədə ordu quruculuğunda qazanılan uğurlar, əsgərlərimizin cəbhə xəttində düşmənə qətiyyətli cavab verməsi, həmçinin dövlət rəhbərliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə göstərilən yüksək qayğı böyüməkdə olan nəslin vətənpərvərlik ruhunu artırır, onlarda əsgəri həyata güclü maraq doğurur. Mənə elə gəlir ki, bütün bu sadaladığım amillər də cəmiyyətdə qələbəyə inam hissi doğuran əsas xüsusiyyətlərdir.

Gənclərin çağırışaqədərki hazırlıq sinfində olan zəruri vəsaitlər, həmçinin şagirdlərin hərbi səhra geyimində olmaları mənə könül xoşluğu verdi. Dərsin gedişini izləyirəm, Kalaşnikov avtomatı haqqında müəllim şagirdlərə geniş məlumat verir, onun sökülüb yığılma qaydalarını izah edirdi. Burada Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, habelə Gənclər və İdman naziri tərəfindən tədrisdə və hərbi vətənpərvərlik işinin aparılmasında səmərəli fəaliyyətinə görə müəllimə verilmiş diplomlar da diqqətimdən yayınmır.

Sonda şagirdlərlə söhbət edirəm. İsa Səfərovun və Xatun Bağırovanın yaxınları müddətli həqiqi hərbi xidmətdədir. Hər ikisi bundan qürur hissi keçirdiklərini dedilər. Nicat Məmmədov, Nemət Həsənov, Şəfa Abdullayeva, Nuranə Həsənova və başqalarından məktəbin şəhid məzunları haqqında nə qədər məlumata malik olduqlarını soruşanda, bir ağızdan söylədilər ki, Vətənimiz, torpaqlarımız uğrunda canlarını fəda etmiş şəhid gənclərin qısa, lakin şərəfli həyat yolu hamımız üçün dəyərli örnəkdir.

Məktəbli gənclərimizlə söhbətimdə ən çox xoşuma gələn cəhət onların ordumuza, əsgər həyatına dair maraqlı düşüncələri idi. Məsələn, onuncu sinifdə oxuyan İsa Səfərov tezliklə əsgər kimi Vətənimizi qorumağa gedəcəyindən necə də həvəslə danışır. Yeniyetməyə görə, hər kəsin ən birinci vəzifəsi Vətənə övlad borcunu ödəməkdir. Digər şagirdlərin də fikirləri məndə xoş duyğular yaratdı. İnandım ki, hələ indidən bu gənclərimizin orduda xidmət haqqında gerçək düşüncələri onları Vətənimizin qürurlu döyüşçüləri kimi yetişdirəcək. İnşallah, bəlkə də bu gün söhbətləşdiyim yeniyetmə ilə tezliklə ya bir əsgər, ya da zabit formasında qarşılaşacağam. Belə vətənpərvər gəncliyin etibarlı gələcəyimiz olacağına isə heç bir şübhəm yoxdur.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Tapşırıqlar mükəmməl yerinə yetirilir



"N" hərbi hissəsində şəxsi heyət günün nizam qaydalarına uyğun olaraq xidmət aparırdı. Əsgərlər meydanda sıra hazırlığı məşğələsi keçməyə hazırlaşırdılar. Onlar sıra təlimlərində tətbiq edilən qaydaları öyrənir, sırada dayanmaq və addımlamaq, səfər addımı, sağa, sola dönmə hərəkətlərini məşq edirlər. Sıra təlimləri zamanı qarşıya çıxan tələblər, üsullar müəyyənləşdirilir və şəxsi heyətə çatdırılır.

Bildiyimiz kimi, ordu sıralarına qədəm qoyan gənc əsgərə davranış qaydaları və sıra hazırlığı kimi hərbi vərdişlər ilkin mərhələdə aşılanır. Sonra paralel olaraq şəxsi heyətin fiziki, döyüş və mənəvi-psixoloji hazırlığı başlanır.

Budur, onların sırada dayanaraq əl və ayaq hərəkətlərini, yerində sağa-sola dönmələrini, verilən tapşırıqları mükəmməl yerinə yetirdiklərini görürük, addım səsləri eşidirik. Hərbi xidmətin əlifbası adlandırılan sıra hazırlığının keçirilməsi təcrübəli hərbçilərə həvalə edilir.

Şəxsi heyətə sıra hazırlığının vərdişlərini öyrədən kiçik çavuş Bəhruz Məmiyev bizimlə söhbətində bildirdi ki, hər bir əsgər üzərinə düşən məsuliyyəti dərindən dərk edir, hərbi xidmətin ilk vaxtlarında qarşıya çıxan çətinliklərin öhdəsindən bacarıqla gəlir, aparılan məşğələlərdə fəal iştirak edirlər. Əsgərlər davranış qaydalarını tez bir zamanda mənimsəyir və məşğələlərdə bacarıq nümayiş etdirirlər.

Şəxsi heyətin sıra hazırlığı məşğələsi davam edir. Əsgərlərin diqqəti manqa komandirinə yönəlib. Onlar növbəti tapşırıqların veriləcəyi anı gözləyirlər...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 81
Nüsxə 4700